HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 oktyabr 2016-cı il
№019 (33)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## GÜRCÜSTAN GÖMRÜK SAHƏSİNDƏ TÜRKİYƏ İLƏ ƏMƏKDAŞLIĞI GÜCLƏNDİRİR



Gürcüstanın Baş Naziri Georgi Kvirikaşvili və Türkiyənin Ticarət və Gömrük Məsələləri üzrə naziri Bülənd Tüfenkçi arasında baş tutan görüşdə gömrük sahəsində Gürcüstanın Türkiyə ilə əməkdaşlığı gücləndirdiyi qeyd edilib. Tərəflər Gürcüstan və Türkiyə arasında gömrük sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsini nəzərdə tutan birgə bəyannamənin əhəmiyyətini qeyd ediblər.

Gürcüstan Baş Nazirinin sözlərinə görə, bu bəyannamə ikitərəfli ticarətə kömək, beynəlxalq ticarəti populyaşdırmaq və regionda təhlükəsiz tədarükü təmin etmək üçün vacibdir.

Georgi Kvirikaşvili bu təşəbbüsün hər iki ölkənin biznes nümayəndələrinin ikitərəfli ticarətlərini sadələşdirəcəyinə, gömrük nəzarət qaydalarının ixtisar edilərək, daha sadə qaydalardan istifadə olunacağına ümidvar olduğunu vurğulayıb.

Tərəflər ticarət-iqtisadi sahədə mövcud olan potensial barədə də danışıblar. Qeyd olunub ki, Türkiyə Gürcüstanın əsas ticarət tərəfdaşıdır. Gürcüstandan ixracın genişləndirilməsi imkanları da müzakirə olunub.

## AZƏRBAYCAN YENƏ DƏ GÜRCÜSTANIN ƏN BÖYÜK SƏRMAYƏÇİSİDİR

Azərbaycan 2016-cı ilin birinci yarım ilində Gürcüstan iqtisadiyyatına qoyulan sərmayənin həcminə görə yenə də Gürcüstanın ən böyük sərmayəçisi olaraq qalır.

Bu ilin yanvar-iyun ayları ərzində Azərbaycan Gürcüstana 283 milyon dollar sərmayə yatırıb. Bu, birbaşa xarici sərmayənin ümumi həcminin 34%-ini təşkil edir. Bu barədə Gürcüstan Milli Statistika Xidməti “Sakstat”ın materiallarında bildirilir.

Sərmayəçilərin siyahısında ikinci yeri 108 milyon dollarla (13%) Böyük Britaniya, üçüncü yeri isə 85 milyon dollar (10,2%) sərmayə ilə Türkiyə tutur.



2016-cı ilin birinci yarım ilində Gürcüstana qoyulan birbaşa xarici sərmayənin həcmi 834 milyon dollar təşkil edib. “Sakstat”ın məlumatına görə, bu, 2015-ci ilin yanvar-iyun aylarının dəqiqləşdirilmiş göstəricilərindən 11% çoxdur.

Dəqiqləşdirilmiş məlumata görə, 2015-ci ilin birinci yarım ilində Gürcüstana qoyulan birbaşa xarici sərmayənin həcmi 754 milyon dollar təşkil edib.


OKTYABRIN HƏYATIMIZA GƏTİRDİYİ CANLANMA 2

SEÇKİLƏR BİTDİ, AMMA SÖZ-SÖBƏTLƏR BİTMƏDİ 3

“TÜRK AXINI” LAYİHƏSİ VƏ DÜNYANIN YENİ DÜZƏNİ 4

KEÇƏLLİK YALNIZ KEÇƏLLƏRİNİMMİ MÜŞKÜLÜDÜR? 5

MÜSƏLMANLARIN BİRLƏŞMƏSİNİ ZƏRURİ EDƏN ŞƏRTLƏR 6

QAFİLİN QANDIĞI QRAFA (ekskluziv) 7

AZƏRBAYCAN YAZARLARI MDB ÜZRƏ “NOBEL”İN QISA SİYAHISINDA 8


## QIRĞIZISTAN PREZİDENTİ GÜRCÜSTANDA RƏSMİ SƏFƏRDƏ OLUB



Oktyabrın 12-də Qırğızıstan prezidenti Almazbek Atambayev Gürcüstana rəsmi səfər edib.

Gürcüstan prezidenti Georgi Marqvelaşvili Qırğızıstan prezidenti Almazbek Atambayevi qəbul edib. Onun qırğız həmkarı ilə təkbətək görüşü olub.

Prezidentin mətbuat xidmətinin məlumatına görə, görüşün gedişində Georgi Marqvelaşvili Qırğızıstan prezidentinin Gürcüstana ilk səfərinin iki ölkə arasında münasibətlərin inkişafına kömək edəcəyinə ümid etdiyini bildirib.

Görüşdə iki ölkə arasında ikitərəfli siyasi münasibətlərin inkişafı və dərinləşməsi məsələlərinə də toxunulub. Gürcüstan prezidentinin bəyanatına görə təhlükəsizlik, iqtisadiyyat və təhsil sahəsində bağlanan müqavilələr tərəflərin əməkdaşlığı üçün yeni imkanlar yaradacaq.

Görüşdə Gürcüstanın işğal olunmuş ərazilərindəki vəziyyət və insan hüquqlarının pozulması faktları da müzakirə olunub.

Georgi Marqvelaşvili Qırğızıstan prezidentinə Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyinə görə təşəkkürünü bildirib. Görüşdə Gürcüstanın regiondakı və transregional əməkdaşlığın inkişafındakı rolu məsələsinə də diqqət yetirilib.

## GÜRCÜSTAN VƏ ÇİN ARASINDA AZAD TİCARƏT HAQQINDA MEMORANDUM İMZALANIB



Gürcüstan və Çin arasında azad ticarət haqqında danışıqların başa çatmasına dair memorandum imzalanıb.

Sənədi Gürcüstan Baş Nazirinin müavini, İqtisadiyyat və Sabit İnkişaf naziri Dmitri Kumsişvili və Çin Xalq Respublikasının Kommersiya naziri Qao Xuçen imzalayıblar. İmzalanma mərasimində Gürcüstanın Baş Naziri Georgi Kvirikaşvili və hər iki ölkənin hökumət nümayəndələri iştirak ediblər.

D. Kumsişvilinin sözlərinə görə, iki ölkə hökumətinin həyata keçirdiyi effektiv iş nəticəsində Çin və Gürcüstan arasında azad ticarət haqqında danışıqlar başa çatıb.

Müqavilə qüvvəyə mindikdən sonra Gürcüstanda istehsal olunan mallar və xidmətlər üçün 1,4 milyard istehlakşını birləşdirən dünyanın ən nəhəng bazarı açıq olacaq. Gürcüstan regionda Çinin azad ticarət haqqında müqavilə bağlayacağı ilk ölkə olacaq.

## QAZAXISTAN, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN DƏMİRYOL İDARƏLƏRİ BEYNƏLXALQ ASSOSİASİYA YARADIRLAR

Qazaxıstan, Azərbaycan və Gürcüstan dəmiryol idarələri Beynəlxalq Transxəzər Assosiasiyasının təsis müqavilələsini imzalamış və onun nizamnaməsini qəbul etmişlər.

Transxəzər beynəlxalq nəqliyyat marşrutunun inkişafına dair koordinasiya komitəsinin iclasında assosiasiyanın qərargahının Astanada yerləşməsi qərara alınıb.

Assosiasiya çərçivəsində effektiv tarif siyasətinin həyata keçirilməsi, xərclərin və xidmət qiymətlərinin optimallaşdırılması, daşınma prosesinin vahid texnologiyasının yaradılması, limanlarda və stansiya qovşaqlarında yük və konteynerlərin iş prosedurları ilə bağlı sərhəd və gömrük idarəçilik əngəllərinin azaldılmasına yardım edilməsi nəzərdə tutulur.



## OKTYABRIN HƏYATIMIZA GƏTİRDİYİ CANLANMA

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Payızın gəlişini hiss etmək o qədər də çətin olmaya gərək ki? Ağacların bozaran yarpaqlarından, geydiyimiz pal-paltarın günü-gündən qalınlaşmasından, gündəlik qayğılarımızın artmasından bunu sezmek, bütün varlığınla payız havasına köklənmək o qədər də çətin deyil. Payız gəlincə özüylə bitib-tükənməyən qayğılar da gətirir və qarşıdan qarlı bir qara qışın da gəldiyini müjdələyir. Şəhərlinin şəhərli qayğıları, kəndlinin də səciyyəvi kənd qayğıları ilə üz-üzə qalması mövsümü başlayır. Amma bütün qayğılara, çətinliklərə rəğmən payız yetkinləşmiş, müdriklik yaşına çatmış bir ağsaqqala, bir bilgə dədəyə bənzəyir, ana təbiət özünün dolğunluğu ilə qarşımızda boy verir.**

Payızın gəlişi təkcə şəxsi həyatımızda, məişətimizdə özünü göstərmir, ictimai-siyasi həyatda da bu və ya digər təbədülatlar, həttə təlatümlər ortaya çıxarır. Payızın gəlişi ilə colma-cocuğun məktəb həyatı, parlamentlərin payız sessiyaları, canım sənə desin, ictimai-siyasi düşərgənin dartışmaları da canlanır. Avqustun yandırıcı istilərindən sonra düşən sərinlik hamını kölgədən çıxmağa təhrik edir, hamının canında gizlənmiş dinamiklik, həyat eşqi yenidən baş qaldırır və hamı qışa qədər canındakı enerjini bir yolla açığa çıxarmaq, xərcləmək və ya bu enerjidən xilas olmaq niyyətinə düşür. Oktyabrın gəlişi ilə başlayan canlanma isə bir başqadır. Nədən ki, bundan sonra insanların bir noyabr abu-havasına girəcəyi, bir noyabr depressiyası yaşayacağı da yaddan çıxarılmamalıdır. Nə qədər ki, oktyabrdır hərəkət etməyə, fəaliyyət göstərməyə dəyər kimi bir fikri səsləndirməyimi də qəribliyə salmayacağınıza ümid edirəm.

Bu ilin oktyabrı qriplə başladı. Rastlaşdığın tanışları, tanımadığın adamları burnunu çəkən, ağzının-burnunun suyu bir-birinə qarışmış, asqıran-öskürən durumunda görmənlə özlüyündə təskinlik tapırdın ki, bu zəhrimar qripə yoluxan təkcə sən deyilsən, ətrafındakıların çoxu da sən günlüdür. Bu günlərdə hansı dostundan-tanışından kef-əhval soruşsan o saat "zəhrimar o gəzənlərdən dəyib cavabını" alarsan. Elə gələn qaragünün toy-bayram olmasını da kim bilmir ki? Elə bu qrip epidemiyasını müşahidə etməklə də, həttə canında-qanında onu yaşamaqla da havaların soyuduğunu, payızın gəldiyini söyləmək mümkündür.

Sözarası onu da deyim ki, oktyabr ayı bizim təqvimimizdə onuncu ayı ifadə etsə də, dilimizə tərcümə etdikdə səkkinci ay kimi səslənir və bu bir paradoks təsiri bağışlayır. Amma əslində oktyabr Qədim Roma təqvimində elə səkkinci ayı bildirirdi. O üzdən ki, romalılarda ilin başlanğıcı martın birindən hesablanırdı. Oktyabr özündə belə bir müəmma gizlətsə də, çox yaxşı keyfiyyətlərə malikdir. Nədən ki, bu ayda dünyanın əksər ölkələri, o cümlədən də ölkəmiz Beynəxlalq Müəllimlər gününü qeyd edir. Dünyanın ilin bir gününü müəllimlər üçün ayırması və ya bir gününü pedaqoqlara həsr etməsi ürəkaçandır. Yeri olmasa da deyim ki, pedaqoq sözü dilimizə tərcümə olunduqda "uşaq gəzdirən" və ya "uşaq aparan" anlamlarını verir. Belə ki, əski yunanların uşaqlarını məktəbə aparıb, gətirən ev quluna pedaqoq deyirdilər. Sonradan pedaqoqun statusunda müəyyən dəyişiklik baş verdi və savadlı qullar ağalarının uşaqlarına elə evin içində təhsil verməklə pedaqoqun bu günkü anlamını ifadə edən müəllimə çevrildilər. Məncə, bu qədər tarixi ekskursla kifayətlənmək olar. Pedaqoqların peşə bayramları ərəfəsində 2017-ci ilin yanvarından ölkəmizdə müəllimlərin maaşlarının artırılacağı ilə bağlı ölkə rəsmilərinin dilindən eşitdiklərimiz də könülaçandır. Və üstəgəl, 2017-ci ilin dövlət büdcəsində məktəb həyatının ölkənin əsas prioritetlərindən biri elan olunması da sevindirici haldır.

**Qaldı oktyabrın ölkəmiz üçün ən önəmli hadisəsinə münasibət bildirmək. Seçkilərdən danışacağımı yəqin ki, fərq etdiniz. Nəhayət, dördaylıq uzun seçkiöncəsi çək-çevirdən sonra ölkəmizdə parlament seçkiləri yekunlaşdı. Əslində hələ buna yekunlaşmaq demək də tərəfimizdən düzgün olmazdı. Nədən ki, önümüzdəki günlərdə birmandatlı seçki dairələrində təkrar seçkilərin keçiriləcəyi də unudulmamalıdır. Yeni parlamentin öz fəaliyyətinə başlamasına sayılı günlərin qaldığını və yeni tərkibdə fəaliyyət göstərəcək ölkə parlamentinin Gürcüstanımız üçün düşərli olacağını arzulayıb, qeydlərimi nöqtələyirəm.**

## BMT-NİN YENİ BAŞ KATİBİNİN ADI BƏLLİ OLDU



BMT-nin yeni baş katibi portuqaliyalı siyasətçi Antoniu Qutterişdir. Yeni baş katib bu vəzifədə Koreya Respublikasının nümayəndəsi Pan Gi Munu əvəz edəcək. O, vəzifəsinin icrasına 2017-ci il yanvarın 1-dən başlayacaq və 2021-ci il dekabrın 31-ə kimi bu vəzifədə qalacaq.

Qeyd edək ki, ötən həftə BMT Təhlükəsizlik Şurası Antoniu Qutterişin bu vəzifəyə təyin olunması ilə bağlı Baş Assambleyaya tövsiyə məktubu göndərmişdi.

67 yaşlı Antoniu Qutteriş 2005-ci ilin iyunundan 2015-ci ilin dekabrına kimi BMT-nin Qaçqınlar üzrə Ali Komissarı vəzifəsini daşıyıb.

O, 1995-2005-ci illərdə Portuqaliyanın baş naziri olub.

## 5 OKTYABR – BEYNƏLXALQ MÜƏLLİMLƏR GÜNÜDÜR

Bu gün dünyanın 100-dən artıq ölkəsində Beynəlxalq Müəllimlər günü (World Teacher`s Day) qeyd olunur.

Müəllimlər gününün qeyd olunması bütün təhsil işçilərinin cəmiyyətdəki vəziyyətinə, onların ölkənin inkişafındakı roluna diqqət yetirməyi nəzərdə tutur.

5 oktyabr tarixi təsadüfən seçilməyib. 1966-cı ilin bu günü Parisdə YUENSKO və Beynəlxalq Əmək Təşkilatının birgə iclasında "Müəllimlərin durumu" haqqında sənəd qəbul olunub. Həmin sənəddə müəllimlərin hüquqları, onların təsnifatının yüksəldilməsi yolları, işə qəbul və əmək şərtləri barədə tövsiyələr yer alıb.

1994-cü ildən bəri iclasın keçirildiyi tarix Müəllimlər günü kimi qeyd olunur. Hər il Müəllimlər gününün yeni devizi olur. 2016-cı ildə bu deviz belədir: "Müəllimin yüksək statusu – onun ixtisasının dəyərinin tanınmasıdır".

Biz də öz növbəmizdə gənc nəslin təlim və tərbiyəsində müstəsna xidmətləri olan müəllimlərimizi peşə bayramları münasibətilə təbrik edir, onlara tutduqları bu müqəddəs yolda uğurlar diləyirik.

## "FORBES" GÜRCÜSTANIN DÜNYA ƏHƏMİYYƏTLİ NƏQLİYYAT MƏRKƏZİNƏ CEVRİLƏCƏYİNİ BİLDİRİR

Amerikanın məşhur "Forbes" nəşri Gürcüstan haqqında "Gürcüstan – Amerikanın strateji tərəfdaşı" sərlövhəli məqalə nəşr edib. Məqalənin müəllifi Riçard Veytsdir.

Müəllif məqaləsində Gürcüstanın iqtisadi uğurlarının heyranedici olmasını vurğulayır. Onun sözlərinə görə, gürcülər ticarətin tənzimlənməsi, bürokratik əngəllərin, korrupsiya və mütəşəkkil cinayətkarlığın ixtisarı, eləcə də birbaşa xarici sərmayənin cəlb edilməsi nöqteyi-nəzərindən böyük uğurlar qazanıblar.

"Düzdür, Gürcüstanın neft və qaz kimi təbii ehtiyatları yoxdur, lakin infrastruktrun intensiv modernləşdirilməsi proqramı sayəsində ölkə regionun enerji və nəqliyyat mərkəzi kimi və dünya əhəmiyyətli qovşaq kimi formalaşır. Xəzər dənizi regionun enerji ehtiyatlarının Avropaya çatdırılması üçün Mərkəzi Asiyadan keçən boru kəməri, dəmiryolu xətti və avtomobil yolları çəkilib. 2014-cü ildə Gürcüstan və Avropa İttifaqı arasında assosiasiya sazişi imzalanıb, cari ilin yayında isə dərin və hər şeyi əhatə edən azad ticarət məkanının yaradılması qüvvəyə minib" – məqalədə deyilir.

## GÜRCÜSTANDA DÖRD PARTİYA HƏR İL DÖVLƏT BÜDCƏSİNDƏN 300 MİN LARİ ALACAQ

Dörd partiya – "Azad demokratlar", "Leyborist partiyası", "Vahid Gürcüstan uğrunda demokratik hərəkat" və Paata Burçuladzenin partiyası Gürcüstan parlamentinə seçkilərdə 3 faizlik baryeri keçsələr də, qanunvericilik orqanına düşə bilməyiblər.

Gürcüstan qanunvericiliyinə uyğun olaraq, parlament seçkilərində 3 faizlik baryeri aşan partiyalar prezident seçkilərində və yerli özünüidarəetmə orqanlarına seçkilərdə pulsuz reklam vaxtı qazanıb, öz namizədlərini MSK-ya təqdim edə bilərlər.

Hər il dörd siyasi subyekt – "Azad demokratlar", "Leyborist partiyası", "Vahid Gürcüstan uğrunda demokratik hərəkat" və Paata Burçuladzenin "Xalq üçün dövlət" partiyasının dövlət büdcəsindən 300 min larilik maliyyə alacağı bildirilir. Öz siyahısında gender balansına əməl edən partiyalara əlavə olaraq 90 000 lari ayırılması da nəzərdə tutulur.

## DEPUTATLIĞA NAMİZƏDLƏR NARKOLOJİ YOXLAMADAN KEÇƏCƏKLƏR



Seçkilərin ilkin nəticələrinə görə Gürcüstan parlamentdə yerlərini təmin edən bütün deputatlığa namizədlər oktyabrın 14-dən etibarən narkoloji yoxlamadan keçməlidirlər. Məlumatı MSK-ı yayıb.

Gürcüstan parlamentinin cəmi 150 deputatı var. Narkoloji yoxlamadan proporsional siyahı üzrə 77 deputatlığa namizəd, habelə birmandatlı seçki dairələrində qələbə çalmış 23 namizəd keçəcək. 50 dairədə tezliklə seçkilərin ikinci turu keçirilməlidir.

Seçki məcəlləsində deyilir: "Narkoman və ya narkotikadan istifadə edən şəxs Gürcüstan parlamentinin deputatı ola bilməz".

Əvvəlcədən Mərkəzi Seçki Komissiyasından müvafiq yoxlamanın aparılmasına icazə almış klinikalar narkoloji yoxlamaların nəticələri haqqında məlumatları MSK-ya təqdim edirlər.

Əgər deputatlığa namizəd narkoloji yoxlamadan keçməzsə və ya ondan imtina edərsə, onun deputat səlahiyyəti tanınmayacaq.

Beləliklə, hazırda narkotik yoxlamasından hakim "Gürcü arzusu – Demokratik Gürcüstan" partiyasının 67, "Vahid Milli Hərəkat" partiyasının 27, "David Tarxan-Mouravi, İrma İnaşvili – Gürcüstan Vətənpərvərlər Alyansı, Birləşmiş Müxalifət" blokunun 6 namizədi keçməlidir.

## 2017-Cİ İL DÖVLƏT BÜDCƏSİ SƏHİYYƏ, REGİONAL İNKİŞAF VƏ TƏHSİL SAHƏLƏRİNƏ YÖNƏLDİLƏCƏK

Gürcüstanın 2017-ci il dövlət büdcəsi layihəsində səhiyyə, regional inkişaf və təhsil sahələrinə daha çox maliyyə vəsaiti ayırılması nəzərdə tutulur. Qanun layihəsinin ilkin variantı artıq parlamentə təqdim olunub.

Layihəyə əsasən 2017-ci ildə səhiyyə və sosial müdafiə sahələrinə 3 330 milyon lari ayırmaq nəzərdə tutulur ki, bunun da 1 665 milyon larisi pensiya xidməti üçün ayırılacaq. Bu, cari ilin dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən 95 milyon lari çoxdur.

Gələn il regional inkişaf və infrastruktur nazirliyinin büdcəsi 1 086 milyon lariyədək artırılacaq. Cari ildə bu göstərici 950 milyon lari təşkil edir. Yol infrastrukturunun maliyyələşdirilməsi sahəsində də artım nəzərdə tutulur.

Gələn il təhsil və elm nazirliyinin büdcəsinin artacağı da planlaşdırılır. Onun 1 025 milyon lari olacağı gözlənilir. Ümumtəhsilin, o cümlədən də müəllimlərin əmək haqqının maliyyələşdirilməsinə 609 milyon lari ayırılacaq.

Büdcə layihəsində "Gürcüstanda istehsal et" proqramına 19,7 milyon lari ayırılması nəzərdə tutulur.

## GÜRCÜSTANDA TURİZMİN İNKİŞAFI FONDU TƏSİS OLUNDU

Gürcüstan İnvestisiya Fondunun bazasında Turizmin İnkişafı Fondu təsis olunub. Turizmin İnkişafı Fondu Tbilisidə, eləcə də Quriya, Acara və Sameqrelo regionlarında 680 milyon dollar dəyəri olan səkkiz genişmiqyaslı layihə həyata keçirməlidir. Fondun məqsədi ölkənin əvvəllər turizmin populyar olmadığı regionlarında turist infrastrukturunun yaradılmasına xidmət etməkdir.

Yeni Fondun təqdimat mərasimində iştirak edən ölkə hökumətinin başçısı Georgi Kvirikaşvili qeyd edib: "Gürcüstanda bu sahənin inkişafı üçün böyük imkanlar var və biz dünyanın turist xəritəsində ən maraqlı ölkələrdən biri olmaq üçün hər şey etməliyik. Yəqin ki, son vaxtlar turistlərin sayının artmasını hamı müşahidə edir və bunu ən yeni statistik məlumatlar da təsdiqləyir.

Biz bu artan meyli saxlayıb, böyütməliyik. Bu məqsədə çatmaq üçün Turizmin İnkişafı Fondunun yaradılması yerində atılmış addımdır. Fond gələcəkdə bu sahənin inkişafında sabitliyi təmin edəcək".

## GÜRCÜSTANDA İLK KÜLƏK ELEKTRİK STANSİYASI AÇILDI

Qori şəhəri yaxınlığında "Kartli"adlı 20,7 MVt gücündə ilk Külək Elektrik Stansiyası açıldı. Müasir standartlara cavab verən külək elektrik stansiyasının açılışı baş nazir Georgi Kvirikaşvilinin iştirakı ilə baş tutub.

Bu stansiyanın tikintisinə 34 milyon dollar vəsait xərclənib.

Hal-hazırda elektrik stansiyasının gücü 20,7 MVt olsa da, perspektivdə onun gücünün 300 MVt-dək artırılması mümkündür.

Layihəni ölkənin Energetika Nazirliyi ilə əməkdaşlıq şəraitində Gürcüstanda Energetikanın İnkişafı Fondu həyata keçirib. Layihənin ümumi dəyərinin 24 milyon dollarını Avropa Yenidənqurma və İnkişaf Bankı, 10 milyon dollarını isə Gürcüstan Neft və Qaz Korporasiyası və Gürcüstanda Energetikanın




İnkişafı Fondu ayırıblar.

Xatırladaq ki, Gürcüstan Energetika Nazirliyi ölkənin külək ehtiyatlarının mənimsənilməsinə başlamaq haqqında 2013-cü ilin sentyabrında qərar vermişdi.

## GÜRCÜSTAN MÜASİR ELEKTROVOZLAR İSTESALINA BAŞLAYACAQ

Oktyabrın 4-də Gürcüstan Dəmir Yolları idarəsi və Gürcüstan-Çin şirkəti arasında 28 ədəd yüksək gücə malik asinxron mühərriklərlə təmin olunmuş yük elektrovozlarının alınmasına dair müqavilə imzalınıb. Bu, həm də Gürcüstanda müasir dəmir yol vasitələri zavodunun tikintisi üçün hazırlıq olacaq.

Tbilisidə müasir standartlara cavab verən dəmiryolu məhsulları istehsal edəcək gürcü-Çin birgə zavodu tikiləcək. Birgə istehsalı Çin tərəfindən "CRRC ZELC" şirkəti, Gürcüstan tərəfdən isə "BMI Partners" və AS Group 1990" şirkətləri həyata keçirəcək. Zavodda yeni texnologiyaların tətbiq olunması ilə müasir standartlara cavab verən elektrovozlar və digər dəmiryol nəqliyyatı vasitələri istehsalı mümkün olacaq. Burada metro vaqonları, elektrik qatarları istehsal ediləcək.

Zavodun tikintisində 600-ə yaxın adam işlə təmin olunacaq. Tikinti başa çatdıqdan sonra zavodda 300 ixtisaslı mütəxəssis çalışacaq.

Dünya bazarında dəmiryolu hərəkət vasitələri istehsalı ilə əsasən beş şirkət məşğuldur. Bu, Almaniyanın Simens, Fransanın Alstom, Kanadanın Bombardier, ABŞ-ın GE və Çinin CRRC şirkətləridir. Layihənin strateji tərəfdaşı onlar arasında ən nəhəngi olan CRRC şirkətidir.

İstehsal məhsulları təkcə daxili bazar üçün deyil, həm də xarici bazar üçün nəzərdə tutulur. Zavodun məhsulları Ukrayna, Azərbaycan, İran, Türkiyə, Avropa bazarlarına da göndəriləcək.

Müasir standartlara cavab verən elektrovozların istehsalı Gürcüstan dəmiryolu parkının lokomativlərinin modernləşdirilərək yeniləşdirilməsində mühüm rol oynayacaq.

## TBİLİSİDƏ RUSTAVELİ-MTAŞMİNDA KANAT YOLU BƏRPA EDİLİR



Tbilisidə 60 il əvvəl salınmış kanat yolu bərpa olunacaq. Kanat yol Rustaveli prospektindən Mtasmindaya getməyə imkan verəcək. Marşurut 2017-ci ilin yayında işə düşəcək.

Kanat yolunun uzunluğu 980 metrdir. Onun aşağı stansiyası Elmlər Akademiyasının həyətində yerləşəcək. İkinci stansiya isə Mtasminda parkında açılacaq. Kanat yolda orta hesabla 6 nəfər üçün nəzərdə tutulmuş 20 qondola işləyəcək.

Kanat yolun çəkilişini kanat yollar istehsalında aparıcı şirkətlərdən biri olan Doppelmayr Avstriya kompaniyası həyata keçirəcək. Kanat yolun əsas hissələri artıq hazırdır və Avstriyada anbarda saxlanılır. Onu müəyyən modifikasiyadan sonra Gürcüstana yola salacaqlar. Quraşdırma işlərinə 2016-cı ilin dekabrında başlanılacaq.

Rustaveli prospektindən Mtasmindayədək uzanan kanat yol sovet dövründə fəaliyyət göstərib. 1958-ci ildə inşa edilən bu yol 1990-cı il ilin iyununda bağlanıb. Həmin vaxt burada baş vermiş qəza nəticəsində 15 nəfər həlak olmuşdu.

## SEÇKİLƏR BİTDİ, AMMA SÖZ-SÖBƏTLƏR BİTMƏDİ



Anar RAFİQOĞLU

**Bildiyiniz kimi, 8 Oktyabr tarixində Gürcüstanda parlament seçkiləri keçirildi. Və "Gürcü Arzusu" partiyası 48.68% səs toplayaraq qalib gəldi. Öncəliklə millət vəkili seçilən soydaşlarımızı – Savalan Mirzəyevi, Ruslan Hacıyevi, Mahir Dərziyevi və Azər Süleymanovu təbrik etmək istəyirəm. "Vahid Milli Hərəkat" partiyasının Marneulidən majoritar namizədi Əhməd İmamquliyevin də ikinci turda qalib gələcəyi proqnozlaşdırılır. Çünki ilk turda ən yaxın rəqibi, "Gürcü Arzusu" partiyasından namizəd Tamaz Naverianidən daha çox səs topladığı məlumdur. Üstəgəl, Marneulidən bir digər azərbaycanlı, "Xalq üçün Dövlət" partiyasının namizədi İsrafil Bayramovun da ikinci turda Əhməd İmamquliyevə dəstək olacağı gözlənilir. Bu barədə o, bir Marneuli sakininin sosial şəbəkədə, "İsrafil Bayramov ikinci turda Əhməd İmamquliyev ilə birləşməli və dəstək olmalıdır" yazısının altına "bunun başqa yolu yoxdur, mən kömək edəcəm" yazaraq, dəstək olacağını bildirib. Xatırladaq ki, İsrafil Bayramov 5,16% səs toplayıb, bu isə 47.91% səs toplayan Əhməd İmamquliyev üçün yetərli bir dəstək olardı. Əlbəttə ki, İsrafil Bayramovu dəstəkləyənlər gerçəkdən seçimini Əhməd İmamquliyevdən yana etsə.**

İndi bütün bunları bir kənara qoyaq. Bu seçkilərdə məni narahat edən iki məsələ oldu: Birincisi siyasi fanatizmin artması. Digəri isə seçicilərin ölkədə gedən siyasi proseslərdən bixəbər olması. İlk öncə birincisinə nəzər salaq. Qeyd edim ki, seçkilər ərəfəsində bir layihədə yer aldığım üçün, azərbaycanlıların yaşadığı bir çox kəndlərə səfər etdim. Və insanların bir-birinin seçiminə hörmətlə yanaşmadığının şahidi oldum. İki qonşu biri iqtidar, digəri isə müxalif partiyanı dəstəklədiyi üçün bir-birinin üzünə baxmır. Bir az siyasi söhbət açılanda da söyüşlər, qışqırtılar başlayır. Gözlərimlə şahid oldum. Biri deyir sənə 41-in formasını geyindirəcəm, o biri deyir qələt eləyərsən, mən sənə 5-in formasını geyindirərəm. Ay başınıza dönüm, bunlar siyasi partiyadır. Futbol komandası-zaddımı forma geyindirəsiniz. Bəzi insanlar isə ümumiyyətlə seçki nədir, kimə səs verirsən, niyə səs verirsən, bilmirlər. Kəndlərdə əhali ilə söhbətləşdikdə bizdən soruşurdular, a bala, kimə səs verək? Bir ölkədə əhali kimə səs verəcəyini başqa birindən soruşursa, o ölkədə hansı siyasi inkişafdan söhbət gedə bilər? Bəzi bölgələrdə hələ də ölkə prezidentinin, baş nazirin adını bilməyən vətəndaşlarımız var. Bu bəlkə də bir çox siyasətçiyə sərf eləyir. Çünki vətəndaş ölkə siyasətini aktiv bir şəkildə izləsə və analiz etməyi bacarsa, artıq kimə səs verəcəyinə də özü qərar verəcək. Bəzilərinə isə öz qərarları ilə səs verən yox, sırf o-bu məsləhət gördüyü üçün, get filan nömrəni işarələ deyəndə, onun dediyini işarələyəcək vətəndaş lazımdı. Çünki onları daha asan əldə edə bilərlər...

Ancaq bütün bunlara baxmayaraq, yenə də sevindirici haldır ki, əvvəl millət vəkili sayımız üç idi, indi dörd, bəlkə də beş olacaq. Sevindirici haldır ki, artıq gənclərimiz dövlət dilini bilməyən siyasətçiləri tənqid edirlər. Millət, millətin vəkillərindən səslərini çıxarmalarını gözləyir. Parlamentdə teatr tamaşası izlərmişcəsinə oturmaqlarını istəmir. Bütün bunları ona görə müsbət dəyərləndirirəm ki, bəlkə heç olmasa bundan sonra siyasətçilərimiz dövlət dilini öyrənməyə, lazım olduqda səslərini çıxarmağa və gərəkən anlarda haqqı müdafiə etməyə çalışsalar.

**Bütün hallarda ölkəmizdə baş tutmuş bu seçkilərə xeyirli-uğurlu olsun deyir və yeni parlamentimizin dövlət, xalq və bütün vətəndaşlar üçün görəcəyi işlərdə müvəffəqiyyətlər diləyirik.**



## "TÜRK AXINI" LAYİHƏSİ VƏ DÜNYANIN YENİ DÜZƏNİ

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

**Dünyada güc mərkəzlərinin konturları yenidən şəkillənməkdədir. Bunu son zamanlar beynəlxalq arenada qüvvələr balansında sürətlə baş verən yerdəyişmələrlə izah etmək mümkündür. Artıq, Rusiyanın Qərb dünyası ilə girdiyi hibrid və "soyuq müharibə" savaşında hadisələrin axarını öz lehinə dəyişdirdiyi açıq-aşkar sezilməkdədir. Bu sahədə Kremlin uğur qazanmasında Türkiyə faktoru mühüm rol oynamaqdadır. Çünki, Türkiyənin Qərb müttəfiqləri tərəfindən "aldadıldığnı" Ankara yaxşıca başa düşür və bu mənada ölkənin çıxarıları üçün Vaşinqtonun "incik" düşməsinə məhəl qoymadan radikal addımlar atmaqdadır. Ankara-Moskva münasibətlərindəki diplomatik "isinmə"lər və cari ilin avqustundan bəri yüksək səviyyəli 3-cü Ərdoğan-Putin görüşmələri deyilənlərə əsasdır.**

Məlum olduğu kimi, Rusiyanın dövlət büdcəsi mədaxilinin böyük hissəsini neft və qaz ixracatından əldə edilən gəlirlər təşkil edir. Vaşinqton və onun müttəfiqləri isə Rusiyanı iqtisadi baxımdan çökdürmək məqsədi ilə enerji daşıyıcılarının qiymətlərini süni şəkildə düşürməkdə israrlıdır. Bu da dünya bazarında neftin qiymətində seyr edilən təlatümün haradan idarə olunduğunu bəlli edir. Bundan başqa, Rusiyanın "Cənub axını" və "Şimal axını" kimi translahiyələrinin fiaskoya uğraması Avropa İttifaqının Şərqi Avropa ölkələrinə təzyiq göstərməsi nəticəsində baş vermişdir. Moskvanın enerji daşıyıcıları bazarında alternativ müştəri axtarışı isə anlaşılandır və bu istiqmətdə potensial alıcı Vaşinqton və onun avropalı müttəfiqləri ilə münasibətləri pozulmuş Türkiyədir. Hadisələrin gedişatının məntiqi nəticəsi isə İstanbulda keçirilən Dünya Enerji Konqresi çərçivəsində rus qazının Türkiyəyə nəql edilməsini nəzərdə tutan "Türk axını" haqqında Rusiya-Türkiyə hökumətlərarası müqviləsinin imzalanması oldu. İllik 63 milyard kubmetr qaz ötürmə qabiliyyəti olacaq boru xətti gerçəkləşməmiş "Cənub axını"nın alternatividir. Münasibətlərin pozulması üzündən dayandırılmış və Rusiya tərəfindən inşa ediləcək "Akkuyu" atom elektirik stansiyası layihəsinin bərpa olunması da Ərdoğan-Putin görüşünün məhsuldarlığına dəlalət edir. Bundan sonra hər iki ölkənin qarşılıqlı münasibətlərdə bir-biri ilə həssas davranacaqlarının işartıları da görünməkdədir. Moskva-Ankara ilişkiləri normallaşdıqdan sonra Türkiyə tərəfi Rusiya-Türkiyə münasibətlərinə ayrıca önəm verir. Belə ki, NATO, ABŞ və Avropa İttifaqı ilə əməkdaşlığa müvəkkil olunmuş bir çox yüksək çinli türk hərbçi və diplomatları tutduğu vəzifədən ya kənarlaşdırılıb və ya dövlət çevrilişinə cəhddə şübhəli bilinərək həbs edilmişdir.

ABŞ-ın Kremli bütün beynəlxalq iqtisadi layihələrdən "boykotetmə" planına nəhayət ki, Putindən tutarlı cavab gəldi. Dünya Enerji Konqresinin 23-cü İstanbul zirvəsində "qara qızıl"ın qiymətini bəlli səviyyələrə qaldırmaq üçün neftin istehsalını bir müddət dondurmaq və ya ixtisar etmək barəsində prezident Putin təkliflə çıxış etdi. İlk mərhələdə gündəlik 700 min barel neft istehsalının ixtisar edilməsi planlaşdırılır. Bu da avtomatik olaraq neftin qiymətində artım yaşatdı. Hal-hazırda dünya birjalarında 1 barel neft 51 dollardır ki, əslində hazırki qiymətlər Rusiyanın cari dövlət büdcəsi təstiq edilərkən proqnozlaşdırılan qiymətlərlə üst-üstə düşür.

Bu arada, Vaşinqton da Türkiyə üzərində təzyiqlərini artırmaqdadır. Belə ki, ABŞ və NATO İŞİD-lə mübarizə bəhanəsi altında İraq və Suriyadakı kürd qruplaşmaları ilə sıx əməkdaşlıq etməklə yanaşı, həm də onları silahlandırmaqdadırlar. Hətta, Norveç xüsusi təyinatlılarının peşmərgələrə hərbi təlimlər keçməsi Türkiyəni qıcıqlandırmaqdan başqa bir şey deyil. İraqın şimalından türk qoşunlarının çıxarılması üçün Obamanın İraqın baş naziri Heydər əl-Abadiyə etdiyi təzyiq ABŞ-Türkiyə münasibətlərinin nə dərəcədə pozulmasına işarədir.

**Türkiyə, artıq, ən azından indiki zaman kəsiyində, xarici siyasətdə atacağı addımlarda tam müstəqillik nümayiş etdirəcək. Xaricdən ediləcək təzyiqlərə nə dərəcədə davam gətirə bilməsi isə qardaş ölkənin dünya siyasətində önəmini artıracaqdır.**

## RUSİYA VƏ TÜRKİYƏ «TÜRK AXINI» ÜZRƏ MÜQAVİLƏ İMZALADILAR

Oktyabrın 10-da İstanbulda "Türk axını" qaz xəttinin tikintisinə dair Türkiyə-Rusiya hökumətlərarası müqaviləsi imzalanıb.

Sənədə Rusiya Prezidenti Vladimir Putin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Rusiyanın Energetika naziri Aleksandr Novak və onun türk həmkarı Berat Albayrak imza atıblar.

RİA Novostinin yaydığı məlumata görə, Rusiya Prezidenti Vladimir Putin "Türk axını" layihəsinin müzakirəsi zamanı Moskva və Ankaranın həm də Türkiyəyə qazın güzəştlərlə verilməsi barədə razılığa gəldiklərini qeyd edib.

## BMT-NİN YENİ BAŞ KATİBİ QAÇQINLARIN BÜTÜN DÜNYA ÜZRƏ YERLƏŞDİRİLMƏSİNİ TƏKLİF EDİR

BMT-nin yeni Baş Katibi Antoniu Qutteriş qaçqınların bütün dünya üzrə bölüşdürülməsini təklif edib.

O, deyib: "Biz onlara əvvəllər olduğundan daha çox dəstək olmalıyıq və onları bütün dünyada paylaşdırmalıyıq. Bizim miqyaslı və təsirli paylaşdırma sisteminə ehtiyacımız var. Qaçqınları yalnız Avropada deyil, Şimali və Latın Amerikasında da yerləşdirməliyik".

Qutterişin fikrincə, Livan, Türkiyə və İordaniya kimi ölkələr qaçqın böhranının ağır təzyiqindən azad olmalıdırlar. O, 1970-ci illərdə dünya birliyinin Vyetnam qaçqınlarına kömək etməsini misal gətirib.

Bundan başqa, A. Qutteriş BMT-nin "mentalitetinin dəyişdirilməsini" irəli sürüb. Onun fikrincə, təşkilat böhranların qarşısının alınması üçün daha çox səy göstərməlidir.

O, qeyd edib: "Diplomatiya münaqişələri önləməlidir, biz həyat şərtlərinə, təhlükəsizliyə və insan hüquqlarının qorunmasına, habelə iqlim dəyişmələrinin nəticələrinin məhdudlaşdırılmasına yardım etməliyik".

## KLİNTON TRAMPI 7 FAİZ QABAQLAYIR



ABŞ prezidentliyinə Demokratlar Partiyasından namizəd Hillari Klinton rəqibini, respublikaçıların namizədi Donald Trampı 7 faiz qabaqlayır.

Oktyabrın 10-12-də Fox News telekanalı tərəfindən keçirilmiş son sorğuya əsasən, Klinton seçicilərin səsinin 45 faizini, Tramp isə 38 faizini toplaya bilər.

3-6 oktyabr tarixində telekanalın keçirdiyi rəy sorğusunda isə Klintonun üstünlüyü cəmi 2 faiz təşkil etmişdi (Klinton - 44%, Tramp - 42%).

Oktyabrın 9-da Klintonla Tramp arasında sayca ikinci teledebat keçirilib. CNN telekanalının sorğusuna əsasən, sabiq dövlət katibi teledebatda 37%-ə qarşı 57% səslə qalib qəlib.

Xatırladaq ki, ABŞ-da növbəti prezident seçkiləri noyabrın 8-də keçiriləcək.

## BÖYÜK BRİTANİYANIN MİLLİ VALYUTASI 25% UCUZLAŞA BİLƏR

Böyük Britaniyanın milli valyutası olan funt sterlinq 2016-cı ilin sonuna qədər dollara münasibətdə 25% ucuzlaşa bilər.

Bu fikir "Qoldman Saç" şirkətinin hesabatında səsləndirilib.

Şirkət bunu ölkənin Avropa Birliyindən çıxması ilə əlaqədar yaranacaq iqtisadi çətinliklərlə əlaqələndirib.

Hesabatda deyilir: "Britaniya valyutasının ucuzlaşmasına təsir edən 5 amil var. Bunlar AB və Böyük Britaniya arasındakı danışıqlarda yaranan çətinliklər, ölkənin iqtisadi göstəricilərinin pisləşməsi, Britaniyanın monetar siyasətinin effektivsizliyi və ABŞ-ın Federal Ehtiyatlar Sisteminin dərəcələrinin artırılmasından qaynaqlanan ehtimallardır. Sonuncu səbəb isə tarixdir. Ona görə ki, funt indiyə qədər 8 dəfə 25% ucuzlaşıb".

## ŞOTLANDİYA MÜSTƏQİLLİK HAQQINDA REFERENDUMUN KEÇİRİLMƏSİNƏ DAİR YENİ QANUN LAYİHƏSİ HAZIRLAYIR

Şotlandiya hökuməti müstəqillik haqqında referendumun keçirilməsinə dair yeni qanun layihəsi hazırlayır. Bu barədə hökumət başçısı Nikola Stercen Şotlandiya Milli Partiyasının qurultayında bəyan edib.

Onun sözlərinə görə, qanun layihəsinin yaxın günlərdə təqdim olunması nəzərdə tutulur.

Cari ilin iyununda keçirilmiş referendumun nəticələrinə görə şotlandların 62%-i Böyük Britaniyanın Avropa İttifaqının tərkibində qalmasına səs vermişdir.

Eyni zamanda sosioloji sorğuların nəticələrinə görə, şotlandların əksəriyyəti Şotlandiyanın Böyük Britaniyadan ayrılması ilə əlaqədar müstəqillik haqqında yeni referendumun keçirilməsinə tərəfdar deyil.

## ABŞ-DA PROQRAMÇILAR NƏ QƏDƏR MAAŞ ALIRLAR?



"Apple" proqramçılarının maaşları "Microsoft", "Facebook" və "Google" kimi texnologiya nəhənglərinin proqramçılarının maaşlarından azdır.

Belə ki, "Apple"da çalışan proqramçının ümumi illik gəliri 208.000 dollar təşkil edir. Ümumilikdə isə ABŞ-da proqramçının orta illik gəliri 126.000 dollar təşkil edir. Bununla belə maaşın əsas hissəsi 99.000 dollardan artıq deyil. Bu məbləğin qalan hissəsi müxtəlif bonuslardan ibarətdir. Lakin ABŞ-dakı bir sıra İT şirkətlərin proqramçılarına verdikləri maaş daha yüksəkdir.

"Apple", "Amazon" və "Uber" kimi şirkətlərdə proqramçıların maaşları illik 200.000 dollardan başlayır. Daha sonra siyahıda "Uber" (292.000 dollar), "Twitter" (290.000 dollar) və "Facebook" (285.000 dollar) gəlir. Bu sahədə ən yüksək maaş isə "Airbnb" (312.000 dollar) şirkətindədir. Beləliklə "Apple" bu reytinqdə yalnız 8-ci yeri tutur.

## GÜRCÜSTAN ENERGETİKA BİRLİYİNİ DAXİL OLUR

Gürcüstan oktyabrın 14-də Energetika Birliyinə daxil olmaq haqqında Sazişi imzalayıb. Bu təşkilat birgə Avropa energetika bazarı yaratmaq məqsədilə Avropa İttifaqını və qonşu ölkələri birləşdirir.

Gürcüstanın Energetika Birliyinə daxil olması haqqında protokolu energetika naziri İlya Eloşvili təşkilatın Nazirlər Şurasının Sarayevoda keçirilən 14-cü iclasında imzalayıb.

Gürcüstan və Avropa İttifaqı ölkənin təşkilata daxil olması haqqında danışıqlara 2016-cı ilin fevralında başlamışdı.

Avropa İttifaqına üzv dövlətlərdən başqa Albaniya, Bosniya və Hersoqovina, Kosovo, Makedoniya, Moldova, Çernoqoriya, Serbiya və Ukrayna da Energetika Birliyinə daxildir.

## 2016-CI İLİN İLK 9 AYI ƏRZİNDƏ GÜRCÜSTANA 4,8 MİLYON NƏFƏR GƏLİB

2016-cı ilin ilk 9 ayı ərzində Gürcüstana gələnlərin sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 8,5% artaraq, 4 879 031 nəfər olub. Bu barədə Gürcüstan DİN-in oktyabrın 3-də dərc olunmuş statistik məlumatlarında bildirilib.

Ölkəyə gələn və 24 saat ərzində ölkədə qalan adamlar “turist” kimi dəyərləndirilir.

2016-cı ilin ilk 9 ayı ərzində ölkəyə gələnlərin 2 156 731 nəfərini turistlər təşkil edib. Bu, 2015-ci ilin ilk 9 ayı ilə müqayisədə 19,5% çoxdur.

Sentyabrda ölkəyə gələn turistlərin sayı 304 814 nəfər təşkil edib ki, bu da keçən ilin sentyabrında gələnlərdən 34,2% çoxdur.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində Gürcüstana qonşu ölkələrdən daha çox turist gəlib.

Bu siyahıyıya 1,17 milyon nəfərlə Azərbaycan başçılıq edir. İkinci pillədə 1 milyon nəfərlə Ermənistan durur. Bəhs olunan dövrdə Gürcüstana 977 075 nəfər Türkiyə, 831 952 Rusiya və 136 573 Ukrayna vətəndaşı gəlib.

2015-ci ildə isə Gürcüstana gələnlərin sayı 5 897 685 nəfər təşkil etmişdi, bu da 2014-cü illə müqayisədə 6,9% çox idi.

## GÜRCÜSTANIN ÜMUMİ XARİCİ BORCU 35,3 MİLYARD LARİ TƏŞKİL EDİR

2016-cı ilin 30 iyununa olan vəziyyətə görə Gürcüstanın ümumi xarici borcu 15,1 milyard dollar və ya 35,3 milyard lari, daha doğrusu son dörd kvartal ərzində ÜDM-un 108,7%-ni təşkil edib. 2016-cı ilin ikinci kvartalında xarici borc 413, 7 milyon dollar artıb.

Xarici dövlət borcu 6,3 milyard dollar və ya 14,8 milyard lari təşkil edib. Bunun 4,5 milyard dolları və ya 10,7 milyard larisi hökumət sektorunun borcudur. 213,4 milyon dolları və ya 500 milyon larisi Milli Bankın öhdəlikləridir. Dövlət müəssisələrinin istiqrazları və borcları uyğun olaraq 890,1 milyon dollar və ya 2,1 milyard lari və 684,3 milyon dollar və ya 1,6 milyard lari təşkil edir.

Bank sektorunun xarici borcu 3,2 milyard dollar və ya 7,4 milyard lari, digər sahələrin xarici borcları 4,7 milyard dollar və ya 11,1 milyard lari, kompaniyalar arasındakı borclar 2,4 milyard dollar və ya 5,6 milyard lari təşkil edib. Ümumi xarici borcun 94,3%-i xarici valyuta ilə təsdiqlənib.

2016-cı ilin 30 iyununa olan vəziyyətə görə Gürcüstanın xalis xarici borcu 9,2 milyard dollar və 21,5 milyard laridir. Bu isə son dörd kvartalın ÜDM-nın 66,3%-i deməkdir. Bunun isə 3,4 milyard dolları və ya 8,1 milyard larisi dövlət sektorunun xalis borcudur. Bu isə ÜDM-in 24,8%-ini təşkil edir.

## TBİLİSİ VƏ AŞQABAD BİRBAŞA AVİAREYS YARADIRLAR

“Türkmən aviaxətti” şirkəti noyabrın 2-dən etibarən müntəzəm Aşqabad-Tbilisi-Aşqabad aviareysləri təşkil etməyə başlayır.

Gürcüstan və Türkmənistan paytaxtları arasında müntəzəm hava reysləri çərşənbə və bazar günləri olmaqla həftədə iki dəfə Boeing-737 və Boeing-757 təyyarələrində həyata keçiriləcək.

Aviaşirkət Gürcüstanın İqtisadiyyat Nazirliyinin Mülki Aviasiya Agentliyindən müvafiq icazə alıb.

İndiyədək Gürcüstan və Türkmənistan arasında birbaşa uçuşlar olmayıb.

Gürcüstanın İqtisadiyyat Nazirliyində Tbilisi və Aşqabad arasında hava əlaqəsinin yaranması ilə iki ölkə arasında ticarət-iqtisadi münasibətlərin güclənəcəyini, sərnişin axınının artacağını, habelə turizm sahəsinin inkişaf edəcəyini düşünürlər.

Turkmenistan Airlines

2014-cü ilin dekabrında Gürcüstan Prezidenti Georgi Marqvelaşvilinin Aşqabada rəsmi səfərindən sonra Gürcüstan və Türkmənistan münasibətlərinin dərinləşməsi prosesi başlamışdı.

Bugün iki ölkəni neft və neft məhsulları ticarəti birləşdirsə də, Gürcüstandan Türkmənistana mineral və şirin su ixracı da artmaqdadır. Bundan başqa, cari ildə Gürcüstan Türkmənistana malların Avropaya tranziti üçün öz limanlarından istifadə etməyi təklif edib.

## KEÇƏLLİK YALNIZ KEÇƏLLƏRİNMİ MÜŞKÜLÜDÜR?

**Tez-tez eşidirik ki, bəs deməzsənmi Avropada saç əkilməsi üzrə yüksək ixtisas sahibi olmuş həkim ucuz, keyfiyyətli saç əkir və əkdiyi saç şəxsin ana saçından heç nəyi ilə fərqlənmir. Reklam çarxının biri bitməmiş, ikincisi, üçüncüsü başlayır. Axşam-sabah keçəlləri saç əkdirməyə dəvət edənlər ipin ucunu yaxş tapıblar, digər tərəfdən də Allah onların əppəyini də burdan verib və onlar da başlarını aşağı sallayıb saç əkməklərindədirlər. İndi mənə irad tuta bilərsiniz ki, bu keçəllərin dərdi sənəmi qalıb və ya kim saç əkdirir sənə nə, saç əkdirmir sənə nə, bundan cibinə bir şey girəcəksə, danış. Mən sizin iradlarınıza bir könüldən, min könülə vuruldum desəm də doğru olmaz. Nədən ki, bu keçəl, keçəllik mövzusu məni elə tutub ki, “desəm öldürərlər, deməsəm öləm” dilemması qarşısında qalmışam. Üstəlik də mənim binayi-qədimdən keçəl obrazına xüsusi sevgimin, xüsusi bir simpatiyamın, hüsnü-**



**rəğbətimin olması da gizlədiləsi zad deyil.**

Bizim xalqın keçəllər barədə xüsusi sevgisi də danılmazdır. Elə bir xalq göstərin ki, keçəl haqqında bizdən çox nağıl yaratsın, keçəli az qala milli simvoluna çevirsin. Siz Allah sözümü qəribliyə salmayın. Novruzun rəmzlərindən biri Keçəl deyilmi? Keçəllərin çoxbilmiş, hiyləgər, yeriyənə yumaq asan, zarafatcıl olmaları barədə fikirləri də mən ha ortalığa atmamışam, dədə-babadan deyiblər, biz də söhbətimizin gözünə qatıb deyirik. Keçəlliyin bilgəlik, alimlik bəlgəsi olmasını da “Ulduz” filmindən baxanlar bilirlər. Bir özünüz deyin, paşaların, sultanların qənimi Koroğlu bir keçəlin əlində bəndi-fərman olmadımı? Başına gəlməyən iş qalmadı. Söhbətin Keçəl Həmzədən getdiyini anşırmanızdan da məmnunam. Amma orası da var ki, indi tariximizin Keçəl Həmzəsini yarandığına peşiman edən o qədər keçəl həmzələr meydana çıxıb, meydan sulayır, gəl görəsən. Seçkiqabağı, elə seçkidən sonra da saçlı-saçsız neçə həmzələr ortaya düşüb, mən sayını itirmişəm, bəlkə biləniniz var? Keçəl Həsən olmasın, Həsən keçəl olsun deyib, yaxasını qırağa çəkənlərimiz də “en” qədərdir, keçəl qızını saçlı deyib ağlayanlarımız da xirtdəyəcən… Artıq seçkiləri də arxada qoyduq, keçəl yıxıldı, başı açıldı (Keçi öldü, qoturu kəsildi də demək olar).

Tez-tez keçəlliyindən, saçının tökülməsindən şikayətlənən, bunu ürəyinə salıb dərd edənlər də çoxdur. Saç tökülməsinin təbii proses olduğunu deyənlər də var, bunun bir çox xəstəliklərdən qaynaqlandığını ehtimal edənlər də. Həttа saçının tökülməməsi üçün varından-yoxundan çıxanlar da hər tərəfimizdə dolaşırlar. İş o yerə çatıb ki, keçəllərin yüzdə altmışı nə pul istəyir, nə də ömür-gün yoldaşı. Onların bircə arzuları var – keçəllərini örtən saçlarının olması. İnanın bunu mən özümdən çıxarmıram, bu sahənin mütəxəssislərinin araşdırmalarının nəticəsi belədir. Dodağınızın qaçması üçün deyim ki, sevdiyi oğlanın saçının tökülüb keçəl olmasından qorxuya düşən xanımlar da çoxluq təşkil edir. Düzdür, bəzən onların bu iddiaları zaman axarında özünü doğrultmur. Sevdiyi gəncin saçı əllini keçsə də hər şeyə rəğmən inad edib tökülmür ki, tökülmür.

Günümüzdə isə keçəlliyə qarşı bahalı kremlərdən, xüsusi şampunlar, son çarə olaraq saç əkilməsi üsulundan istifadə edilir. Dünyada hər il bunun üçün 3,5 milyard dollar xərclənir. Bu rəqəmlərə nəzər yetirdikdə hardasa səhv edildiyini düşünmək olar. Amma yox, bu nüfuzlu qurumların bizə təqdim etdiyi statistik bir göstəricidir.

Keçəl kişilər daha ağıllı, dominant və yüksək status sahibi kimi qəbul edilirlər. Hətta keçəl kişilərin saçlılara nisbətən bir çox xəstəliklərə qarşı daha dözümlü olduğunu söyləyən mütəxəssislər də yox deyil. Yazımızı oxuyan keçəllər ürəklərinə salmasınlar, amma bunun əksini də söyləyənlər var. Məsələn, yapon alimləri uzun illərin araşdırmasından sonra saçı tökülən adamların ürək xəstəliklərinə tutulma ehtimallarının daha yüksək olması qənaətinə gəliblər.

İndi bunların hamısını qatlayıb qoyaq bir tərəfə. Kiminsə kəlliyindən, keçəlliyindən, dazlığından bizə nə sualını verənlər də öz mövqelərində haqlıdırlar. Kimə kəl, kimə keçəl və ya daz deyilməsi adamın kimliyini, ictimai durumunu dəyişmir və dəyişmək iqtidarında da deyil. Nədən ki, saç və ya tük örtüyü müəyyən bir gözəllik, estetik zövq qaynağı olsa da, insanın ağlına, dərrakəsinə bir misqal belə təsir edə bilməyəcək qədər acizdir. Əsas məsələ başdır, qafa da demək olar və bu qafa dediyimizin içərisindədkidir. Necə deyərlər, kəsilən baş saçından ötrü ağlamaz. Başsız ən uzun, ən ipək saçın belə heç bir dəyərinin olmadığını söyləmək belə yersizdir.

**…bir də deməyiblərmi ki, keçəl dərman bilsəydi, öz başına çəkərdi… Daha mən bu mövzunu qapatmaq zorundayam və bir də heç bir keçəl-filanla işimin olmayacağına dair qəti mövqeyimi bildirirəm. O üzdən ki, bu dünyada insan haqları deyilən bir şey var və mənim belə bir məsələyə münasibət bildirməm, kiminsə xoşuna gəlməyə bilər və dünyanın yekə-yekə insan hüquqlarını müdafiə təşkilatları işə qarışıb, ən azından məni qınaya bilərlər. Özümü saxlaya bilmirəm və sonda keçəllərin hüquqlarını qoruyan bir təşkilatın varlığından-yoxluğundan xəbər bilmək istəyirəm. Bilən varsa, desin, mən də işimi qanıb, susum...**

A. M. DƏLİVƏLOĞLU

## MALİYYƏ SAVADLILIĞI REYTİNQİNDƏ GÜRCÜSTAN 24-CÜ YERİ TUTUR

Beynəlxalq iqtisadi əməkdaşlıq və inkişaf şəbəkəsi OECD-in araşdırmalarının nəticələrinə görə, Gürcüstan maliyyə savadlılığının səviyyəsi üzrə 30 ölkə arasında 12,4 balla 24-ci yeri tutur.

Mövcud gəlirlər bütün lazım olan xərcləri örtürmü sualını rəyi soruşulanların 61%-i mənfi cavablandırıb. rəyi soruşulanların 45%-i xərcləri ödəmək üçün kredit götürdüklərini bildirib.

Tədqiqata əsasən, rəyi soruşulan Gürcüstan vətəndaşlarının 22%-i sadə və mürəkkəb bank faizləri arasındakı fərqi yaxşı başa düşür, 85%-i borc götürməyin riskli olduğunu anlayır, 85%-i inflyasiyanı düzgün başa düşür, 63%-i diversifikasiyadan xəbərdardır.

Araşdırmada 30 ölkədən 52 000 nəfər iştirak edib.



## MÜSƏLMANLARIN BİRLƏŞMƏSİNİ ZƏRURİ EDƏN ŞƏRTLƏR

Hacı BƏKİROĞLU
kafkasli@mail.ru

**Allah axirətdə Qurandan sorğulanacağımızı buyurur. Yalnız namaz, zəkat kimi müəyyən ibadətləri deyil, birliyi əmr edən ayələrə uyğun gəlib-gəlmədiyimizi və müsəlmanların birliyi üçün səy göstərib-göstərmədiyimizi də soruşacaq Rəbbimiz.**

İnkar edənlər və pislikləri təşkil edənlər mənfəətləri üçün necə birlikdə hərəkət edirlərsə, müsəlmanlar da birlikdə olmalıdırlar, birlik zəruridir. İslam dünyasında illərdir yaşanan ağrılar və tökülən qanlar, birlik əvəzinə parçalanmamızın gətirdiyi nəticələrdən biridir. Qan və gözyaşının dayanması, ağrıların və fitnənin sona çatması, insanların hüzur içində olmaları üçün İslam aləminin birlik qurması çox əhəmiyyətlidir. Başqa şəkildə nə iqtisadi böhran dayandırıla bilər, nə ictimai çətinlik sona çata bilər. Tarixi və ictimai baxımdan zəruriliyin də üzərində dini bir səbəb var. Eyni dindən olan insanların qardaş olmaları, bir-birləriylə əlaqə qurmaları lazımdır. Bunu kim inkar edə bilər?

İslam əxlaqının ən əhəmiyyətli mərhələlərindən biri, İslam Birliyinin təmin edilməsidir. Allahın əmri, Peyğəmbərimizin (s.ə.s) də vəsiyyətidir İslam Birliyi.

Ümidsizliyi, ürkəkliyi və qorxaqlığı buraxmalıyıq, qorxulacaq tək güc Uca Allahdır. Qlobal güc göstərişi sərgiləyənləri, Amerika ilə qorxudanları və müsəlmanları zəifləmtməyə çalışanları vecə almamalıyıq. İslam aləmini dayaqsız "qisas"larla qorxutmağa çalışanlar, şeytanın təsirində olan kəslərdir.

Quran əxlaqının dünyaya hakim olması əslində çox asandır. Ancaq bunun çətin olduğunu göstərən şeytandır. Bəzi insanlar, müsəlmanları ümidsizliyə sövq etmək üçün şeytanın elçiliyini etməkdədirlər. İslamın dünyadakı qarşısıalınmaz yüksəlişi göz önündəykən bu şəxslər "İslam əsla hakim ola bilməz" deməyi davam etdirməkdədirlər. Onların qışqırıqlarına inad İslam daha da yüksəlməkdədir. Quran əxlaqının insanı isidən istiliyi bütün dünyanı qucaqlamaqdadır. Məhz 600 ilə yaxın bir zamanda dünyaya hökmranlıq etmiş Osmanlı imperiyası İslam əxlaqının yaşanması ilə ayaqda qalmışdır.

Quran əxlaqının yer üzündəki hakimiyyəti, Allahın Quranda xəbər verdiyi bir vədi ikən, bəzi müsəlmanların bu mövzuda ümidsiz və pessimist olmaları səhv olar. Ümidsizlik insanın din əxlaqını şövq içində yaşamasına manеə törədən ən əhəmiyyətli ünsürlərdəndir. Allah, inananlara heç bir hadisə qarşısında ümidsizliyə qapılmamalarını, Ona güvənmələrini əmr edir.

"Allahın ipinə hamınız sıx sarılın. Dağılıb ayrılmayın. Və Allahın sizin üzərinizdəki nemətini xatırlayın. Hanı siz düşməndiniz. O, ürəklərinizi isindirdi və siz Onun nemətiylə qardaşlar olaraq səhərlədiniz. Yenə siz, tam atəş çuxurunun kənarındaykən, oradan sizi qurtardı. Ümid edilir ki, hidayətə çatarsınız deyə, Allah, sizə ayələrini belə açıqlayır". (Ali İmran, 103)

"Allaha və Rəsuluna itaət edin və çəkişib bir-birinizə düşməyin, qorxuya qapılarsınız gücünüz gedər..." (Ənfal, 46)

Bir müsəlmanın könlündəki ən böyük istək Allahın məmnuniyyətini qazanmaqdır. Quran əxlaqının dünyaya hakim olmasıdır. Müsəlman Əsri Səadət Müsəlmanlığını istəyir. Diləyimiz insanların qorxu duymadan, etibarla və barış içində yaşadıqları bir dünyadır. Bu, Allahın diləməsiylə reallaşacaq olan bir hadisədir. Bolluğuyla, bərəkətiylə, insanlara təmin edəcəyi rifah və hüzur dolu mühitiylə hər müsəlmanın çatmaq istəyəcəyi və xəyal etdiyi bu həyatla müjdələnilmək, şübhəsiz bütün müsəlmanlar üçün üstün bir şərəfdir. Allah Saffat surəsində, "Və şübhəsiz, bizim ordularımız, üstün gələcək olanlar onlardır." zəfərin, Səff Surəsida isə yaxın bir fəthin müjdəsini verir:

**"Və sevəcəyiniz bir başqa (nemət) daha var: Allahdan kömək və zəfər (nüsrət) və yaxın bir fəth. Möminləri müjdələ". (Səff, 13)**

## MOLLA FATMA HACI ƏHMƏD QIZI HAQQINDA BİR NEÇƏ SÖZ

*Molla Fatma Hacı Əhməd qızı 1883-cü ildə Borçalı qəzasının Kürüsta Kəpənəkçi kəndində ziyalı ailəsində anadan olmuşdur. O, Zərgər nəslindəndir. Onun atası Hacı Əhməd Hacı Vəli oğlu savadlı, ərəb dilini mükəmməl bilən, ali təhsilli bir şəxs olmuşdur. Bu keyfiyyətlərinə görə Hacı Əhməd Tiflidəki məscidin qazisi Yusif Əfəndinin müavini kimi bir məqama irəli çəkilmişdir. Öz dövrünün ziyalı bir şəxsi olan Hacı Əhməd İstanbul universitetinin ilahiyyat fakültəsini bitirmiş, elə oradan da 27 yaşında müqəddəs Həcc ziyarətinə getmişdir. Elə bu səbəbdən də onun övladları – Məhəmməd, Vəli, Fatma, Həbibə və Xoca Quranı yaxşı bilirdilər.*



Molla Fatma Hacı Əhməd qızı ibtidai Quran təhsilini öz atasından, orta Quran təhsilini isə Ağbaba mahalının Xançallı kəndində dayısı Kazım Əfəndidən almışdır.

Kazım Əfəndi Molla Fatma haqqında belə demişdir: "Bacım İreyvənin qızı Quranı olduqca savadlı bilən yeganə bir qızdır". Təsadüfi deyil ki, Molla Fatma məhz bu savadı, biliyi ilə tanınmış, həmişə xalq arasında, el-obada, eləcə də Zərgər nəslində dinin təbliğatçısı olmuşdur. Onun haqqında atası Hacı Əhməd Vəli oğlunun dedikləri də maraqladır: "Quran-i-Kərimi və islam dinini, Quran ayələrinin tələblərini yaxşı bilən bir övladdır". Bir daha qeyd edək ki, Molla Fatma Qurana aid olan hər şeyi atasından öyrənmişdir. O, dinə aid olan hər bir yeniliyi atasından əxz etməyə çalışırdı.

Molla Fatma Hacı Əhməd qızı həmişə qeyd edirdi: "Mənim Quran təhsili almağımda atam Hacı Əhmədin və dayım Kazım Əfəndinin böyük zəhməti olmuşdur. Allah onların hər ikisinə rəhmət eləsin." O, həmişə deyərdi ki, mən atamın və dayımın zəhmətini heç vaxt unuda bilmərəm. Molla Fatma Kəpənəkçidə yaşadıqları vaxtları, əmisi Hacı Qəhrəmanı da tez-tez xatırlayır, oğul övladı olmayan bu gözəl insanı rəhmətlə yada salırdı.

Molla Fatma çox zəhmətkeş qadın olub. Onu tanıyanlar bunu dəfələrlə deyiblər. Molla Fatma dünyaya iki oğul övladı gətirmişdir. Həyat yoldaşı Molla Tağılı nəslindən Molla Eyyub olmuşdur.Həyat yoldaşı Eyyub dünyasını tez dəyişdiyindən oğulları Musanın və Əlixanın tərbiyəsi ilə özü məşğul olmuşdur. Böyük oğlu Musa gənc yaşlarından təsərrüfatda işləməli olmuş, kiçik oğlu Əlixan isə Tbilisidə pedaqoji texnikumda təhsil almış və Qardabani rayonunun Kosalı orta məktəbində bir müddət müəllim işləmişdir. Daha sonra qanlı-qadalı müharibə illəri başlamış və Əlixan müharibəyə getməli olmuşdur. Sovet-alman cəbhəsində dəfələrlə şücaət göstərən, orden və medallarla təltif olunan baş leytnant Əlixan Eyub oğlu sonra sovet-yapon cəbhəsinə yola düşməli olur. Bunu anası Molla Fatmya yazdığı sonuncu məktub da təsdiqləyir. Və gənc bir ömür də beləcə tamamlanır.

*Dəyərli oxucular, bu kiçik yazıda hamıya örnək ola biləcək fədakar bir qadının ömür kitabından bir neçə məqamı diqqətinizə çatdırmağa çalışdıq. İnanırıq ki, Molla Fatmanın ömür kitabından verdiyimiz bu nümunələr sizin də ürəyinizcə olacaq.*

**Nəvəsi Nizami Musa oğlu QASIMOV**
Qardabani, Candar kəndi

## BAŞ NAZİR MÜƏLLİMLİRİN ƏMƏK HAQQININ ARTIRILACAĞINI TƏSDİQLƏDİ

Gürcüstanın Baş Naziri Tbilisidə pedaqoqlarla görüş keçirib və təhsilin hakimiyyət üçün bir nömrəli prioritet olaraq qalacağını vurğulayıb. Görüşdə müxtəlif məktəblərdən 500 müəllim iştirak edib.

Georgi Kvirikaşvili 2016-cı ildə hökumətin təhsil sahəsini əhəmiyyətli dərəcədə maliyyələşdirdiyini bildirib.

Baş Nazir deyib: "Təkcə məktəblərdə ümumi təhsilin maliyyələşdirilməsi 348 milyon lari artıb".

"Artıq 1600-dək məktəb bərpa olunub, on yeni məktəb hazır olmaq üzrədir, onu isə artıq açılıb. ABŞ hökumətinin dəstəyi ilə gələn il 100-dək ictimai məktəbin bərpası nəzərdə tutulur"- Kvirikaşvili qeyd edib.

Anasının və nənəsinin pedaqoq olmasını dilə gətirən hökumət başçısı müəllimlərin qarşılaşdıqları çətinliklərə yaxşı bələd olduğunu söyləyib.

Kvirikikaşvili pedaqoqların əmək haqlarının artırılacağını da vurğulayıb.

Təhsil Naziri Aleksandr Cecelavanın əvvəllər söylədiyi kimi 1 yanvar 12017-ci il tarixindən etibarən müəllimlərin orta aylıq əmək haqqı artırılacaq və mentor müəllim 1100 lari, aparıcı müəllim 965 lari, baş müəllim 800 lari, praktik müəllim isə 600 lari əmək haqqı alacaq.

## GÜRCÜSTANA QRİP ƏLEYHİNƏ VAKSİNLƏR GƏTİRİLİB



Artıq Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi qrip əleyhinə peyvəndlərin ölkəmizə daxil olduğu bildirilir. Məlumatı Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq üzrə Milli Mərkəz yayıb.

Demək olar ki, ölkənin istənilən tibb müəssisəsində peyvənd etdirmək mümkündür. Gürcüstana əsasən 25 lari dəyəri olan holland və fransız peyvəndləri gətirilir. Bir yaşından yuxarı arzulayan hər bir şəxs qrip və soyuqdəymə əleyhinə peyvənd oluna bilər.

Gürcüstanda dövlət proqramı çərçivəsində qrip əleyhinə peyvənddən aşağıdakı risk qrupları pulsuz istifadə edə bilərlər: 18 yaşınadək xroniki xəstələr (diabet, dializ), sığınacaqlarda yaşayan uşaqlar və yaşlılar və onlara xidmət edən personal, tibb müəssisələrinin qəbul, təcili yardım, reanimasiya şöbələrinin, dializ şöbəsinin və ictimai səhiyyə mərkəzlərinin xidməti personalı.

Gürcü həkimlərin sözlərinə görə, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən tövsiyə olunan istənilən peyvənd təhlükəsizdir və sınaqdan keçirilib.

# İLİN-GÜNÜN NOBEL HAVASI

***Bu sayımızda dünyanın qulağını bu günlərdə qurdalayan hadisələrdən biri olan Nobel mükafatı haqqında yazmaq istəyirəm. Bu həftə mükafat sahiblərinin adları açıqlandı. Əksəriyyətinizin bu barədə məlumatlı olduğunu yaqin etməklə bərabər, yeni öyrəndiyim bir neçə məlumatı paylaşmaqda da heç bir yamanlıq görmürəm. Nobel mükafatı elm, incəsənət və dünya ictimaiyyətinin inkişafı sahəsində əməyi keçənlərə verilən ən məşhur beynəlxalq mükafatlardan biridir.***

Haqqında söz açacağımız mükafat 1833-1896-cı illərdə yaşamış isveçli alim, sənayeçi, linqvist, filosof və humanist olan Alfred Nobellə bağlıdır. Nobel 1885-ci ildə, ilin günün təxminən bu çağında Parisdə vəsiyyətnamə yazıb. O, 33200000 kronluq sərvətinin böyük bir hissəsinin mükafatın yaradılmasına sərf olunmasını istəyib. Bu mükafat namizədlərin milliyətindən asılı olmayaraq ədəbiyyat, fizika, kimya, fiziologiya, tibb və s. digər sahələr üzrə verilməli idi. Lakin sonradan sevdiyi xanımı bir riyaziyyatçı üzündən itirdiyinə görə, riyaziyyatçılar mükafatdan məhrum qalıblar.

Nobel mükafatı 1901-ci ildən verilməyə başlayıb. Xüsusi yaradılmış Nobel komitəsi tərəfindən bütün il ərzində namizəd siyahısı üzərində işlər, araşdırmalar aparılır. Müxtəlif ölkələrin professorlarına, akademik təşkilatlara, keçmiş Nobel mükafatı sahiblərinə məktublar vasitəsi ilə yeni namizədlərin seçilməsi üçün dəvət göndərilir. Qaliblərin yekun seçimi İsveç Kral Elm Akademiyası, İsveç Akademiyası, Karolina İnstitutunun Nobel Assambleyası və Norveç Nobel komitəsi tərəfindən həyata keçirilir. Ənənəyə sadiq olaraq qaliblərin adları oktyabr ayında elan edilir. 10 dekabr, mükafat yaradıcısının ölüm günündə isə mükafatın sahiblərinə təqdimat mərasimi keçirilir. Stokholmda fizika, kimya, fiziologiya, tibb, ədəbiyyat və iqtisadiyyat, Oslo da isə Nobel üzrə sülh mükafatı təqdim edilir. Hər bir Nobel mükafatının dəyəri 10 milyon İsveç kronuna (təqribən 1 milyon avro) bərabərdir.

Nobel tarixində mükafata layiq görülən ən gənc laureat Laurens Bragg olub. Atası ilə birlikdə 1915-ci ildə fizika üzrə Nobel mükafatı alarkən onun cəmi 25 yaşı olub.Bunun əksinə olaraq, dünyanın ən yaşlı nobelçisi Leonid Hurvikzdir. 90 yaşlı Leonid 2007-ci ildə iqtisad elmləri üzrə mükafata layiq görülüb. Yəni, nə başınızı ağrıdım, murdar tükündən yenicə arınmış Laurens də, bir ayağı gora titrəyən Leonid də yeməyib, içməyib Nobel alıblar. Bu mükafatın verilməsi zaman hər zaman ictimaiyyət arasında ağız buranlar olur. Deyəcəksiniz nə burması? Yəni, hamımıza çox yaxşı məlum olan haldır. Qonşunun təzə evinə, son model maşınına və ya nə bilim hansısa uğuruna, əlinin, adının qalınlaşmasına müxtəlif mənalar verib, altında başqa şeylər axtarmaq, qəzet oxuyanların əksəriyyəti üçün yad olmayan şeydir. Bunu ya özümüz etmişik, ya da başqasından eşitmişik. Doğrudur bəzən iddialarımızın altı boş olmaya bilir, bəzən həqiqətən də haqlı olmuş ola bilərik.

Lakin, qəbul etmək məcburiyyətində olduğumuz bir hal var ki, bu insanlar bu və ya digər xüsusiyyətləri ilə seçilmiş insanlardır. İstisnalara hər zaman, hər yerdə yer var. Ancaq, Nobel mükafatını alan istənilən sahə nümayəndəsi gördüyü işdə həqiqətən də Nobelin vəsiyyətində nəzərdə tutduğu məqsədi yaşada biləndir. Bu insanlar dünya üçün az da olsa töhfə verməyi bacaranlardır. Çox yazan, çox işləyən, hər şeyi bir yana qoysaq, çox əmək verən və sahəsində məhsuldar olan insanlar mövzu bəhsimiz olan mükafata layiq görülüblər. Məsələn, " amerikan ənənəvi musiqisinə yeni poetik çalarlar gətirdiyinə görə" ədəbiyyat üzrə bu il Nobel alan amerikalı Bob Dilana da xəbər yayılandan bəridir ki, əmmalar tapılır, ironiyalar edilir. O, pisdir, yaxşısını biz edək, nə olar ki?




Tarix bir neçə fərqli və talesiz nobelçiyə də şahidlik edib. 4 Nobel laureatı da onlara təqdim edilən mükafatlardan imtina edib. Belə ki, 1958-ci ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülən rus şair, dramaturq Boris Pasternakı bu mükafatdan imtina etməyə vətəndaşı olduğu SSRİ məcbur edib. Adolf Hitler 3 alman nobelçisini – kimya üzrə Richard Kuhnu (1938), Adolf Butenandtı (1939), fiziologiya və tibb üzrə Gerhard Domaqkı layiq görüldükləri mükafatlardan imtinaya məcbur edib. Buna bənzər və ya tam əksi olan hadisələr isə müxtəlif hallarda elə bu gün də yaşanmaqdadır. Gözü ağanın ağzında qalıb, sözü ağanın sözünün donu dəyişmişi olanlar boğazdan aşacaq qədərdir.

***Dünya tarixində iki Nobel laureatı özü şəxsən bu mükafatdan imtina edib. Onlardan biri Jan Pol Sartrdır. J. P. Sartr 1964-cü ildə ona təqdim edilən Nobel ədəbiyyat mükafatından imtina edib, bunun səbəbi isə onun bütün rəsmi təltiflərdən xoşhal olmamasıdır. Digər görkəmli insan Le Duc Thodur. O, 1973-cü ildə Nobel sülh mükafatına layiq görülsə də, Vyetnamda mövcud olan müharibə vəziyyətinə görə ondan imtina edib. Hamımız yaxşı bilirik ki, belə şeylərdən imtina edib, yox demək də hər igidin həddi deyil, çoxları maddi, mənəvi hər şeyi belə parıltılara qurban verməyə hazırdırlar. Necə deyərlər, ürəklərinin başı tökülür... Ancaq, sən saydığını say, gör ağa nələr sayır...***

Afayət AFİQ

# BMT GÜRCÜSTANI "ÖLMƏKDƏ OLAN MİLLƏTLƏR" SİYAHISINA YERLƏŞDİRİB

Gürcüstanda doğum sayının qorxulu azalması qeydə alınır, ölkə artıq "ölməkdə olan millətlər" siyahısına düşüb. "BMT Gürcüstanı "ölməkdə olan millətlər" və "yox olan dillər" siyahısında yerləşdirib. Əgər heç nə dəyişməsə 2050-ci ilə doğru Gürcüstanın əhalisi 28%, etnik gürcülərin sayı iki dəfə azalacaq" – "Ümumdünya ailə konqresi" təşkilatının direktoru Tinatin Xorbaladze Sputnik agentliyinə bildirib.

Əhalinin 1989-cu il siyahıya alınmasına görə Gürcüstanın əhalisi 5,4 milyon nəfər idi. Gürcüstanın Milli Statistika Bürosunun 2015-ci ildə dərc etdiyi məlumata əsasən ölkə əhalisinin sayı 3,7 milyon nəfərədək azalıb. BMT Katibliyinin iqtisadi və sosial məsələlər üzrə departamenti Gürcüstanı əhalisi 2050-ci ildə azalacaq ölkələr siyahısına daxil edib.

Xorbaladze ölkədəki ağır iqtisadi durumu, ölkənin keçmiş prezidenti Mixail Saakaşvilinin siyasətini, habelə liberal Qərb ideologiyalarının təsirini demoqrafik azalmanın səbəbləri arasında qeyd edib.

# QAFİLİN QANDIĞI QRAFA *(eksklüziv)*



İBRAHİMXƏLİL
*tamiyev57@mail.ru*

**Unudulmaz Mirzə Cəlil uzaq və sazaq 1906-cı ildə yazırdı: "...insanın heç bir üzvündən o qədər zərər insana yetişməz, nə qədər ki, dilindən yetişir". Hər dəfə dilimə qəsr olan dişlərimlə dilimi dişləyəndə yadıma düşür və dərhal pıçıldayıram: ey dili-qafil!**

Açığı, mənə ağzımdakı dilimdən artıq əlimdəki qələmimin "dili"ndən çox ziyan gəlir və qələmimin dilini hər nə qədər "qıfıllamaq" cəhdlərim olsa da qələmim öz azadlıq havasını çalmağından qalmır. Arada-sırada ağlıma bu da gəlir ki, bəlkə də azad qələmlərin bu dikliyi, yekəxanalığı ucbatından meşələri bu qədər ibtidai israrla qırırlar: qırırlar ki, meşələr qələm (dəryalar da mürəkkəb) olmasın.

Etiraf edim ki, ikinci hissəsi "-qraf", "-qrafiya" ilə bitən alınma mürəkkəb sözlərə hələ orta məktəb illərindən rayihəli rəğbətim var. Çünki bu "-qraf" da, "-qrafiya" (yunanca: graphö) da "yazıram" anlamını verir: paraqraf, epiqraf, xronoqraf, orfoqrafiya, tipoqrafiya, etnoqrafiya, kallioqraf, stenoqrafiya, bioqraf, komedioqraf və sairə və ilaxır... Siyahını arazbarı uzatsam, gedib Zəncandan Ərzincana çıxar.

...Yazmaq – Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın o qədər önəm daşıyır ki, Mirzə Qələm hətta fransız filosofu Dekartın "düşünürəm, deməli – varam" aforizmini özünəməxsus tərzdə "yazıram, deməli – yaşayıram" şəklinə salıb.

Amma Mirzə Qələmin yaşadığı Süsən-Sünbüldə Mirzə Səməndər Mirzə Mikrobu, Mirzə Mikrob da Mirzə Virusu, Mirzə Virus da Mirzə Səfəri (Əbdürrəhim bəy Haqverdiyevə Allahın rəhmətini diləyirəm) qafillikdə günahlandırdığından Mirzə Qələm "Qafilliyin nişanələri" adlı kitab yazdı; kitabda qafillər zümrəsinə qatılmaq, qəflət pərdəsi, bəsirət gözünün korluğu, etinasızlıq və xəbərsizlik haqqında da danışılırdı. Dərhal Mirzə Virusla Mirzə Mikrob (və Dədə Mirzə Tüpdağıdan) birləşdilər və Mirzə Qələmə ünvanlanan təhqir dolu paskvili internetə yerləşdirdilər. Paskvil belə bir xatalı xəbərdarlıqla qurtarırdı: öz dilim-dilim dilin cəhənnəmə, qələminin dilini qarnına qoy, yoxsa onu biryolluq sındırarıq!

Bu da sizə ekstremal Süsən-Sünbül eqoizmi!

Bu təkəbbürlü kobudlar bilmir ki, vətəni sevmək də imandandır və Gürcüstan heç zaman rəva görməz ki, azad qələm "dilini" qarnına qoya.

Müxtəsəri, ürək düzəlməsə, imanmı düzələr? Süsən-Sünbülün dram (və melodram) düşkünləri bir-birlərini qafillikdə günahlandırmaqda davam edirlər. Hətta bəzi məxsusi-müstəsna-xüsusilər, yəni özünü və həyatını da bir eksklüziv hesab edənlər Süsən-Sünbüldə eynən BMT-nin Təhlükəsizlik Şurasına bənzər bir şura da təsis etmək istədilər ki, hər dəfə Mirzə Qələmin yazılarına "veto" qoysunlar. Amma sözün sərhədimi var? Söz gömrükxana, rüsummu tanıyır? Məgər qələm qorxumu bilir?

...Qrafa – kağız üzərində sütuna deyilir. Yeri gəlmişkən, Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın mənə vaqiflərin işarəli-şifrli qrafaları-sütunları yaxşı (və arazbarı) tanışdır. Məsələn, Əjdər Olun

Günüm çiçəklərdən yoğurulanda
ətəyim yarpaqdan, yaxam kağızdan.
Elə xoşum gəlir çağırılanda
boylanam qələmdən, baxam kağızdan. –

bəndində olduğutək, qələmdən boylanmağın, kağızdan, sütundan, kitabdan, köşədən baxmağın zövqü-ləzzəti dünyanı sənə elə sevdirir ki, axirətinə də bir ziyanı-zərəri dəymir.

P.S.

Burasını da deyim ki, Süsən-Sünbüldə qəflətdə olanlar haqqında bəzən belə deyirlər: onun qandığı qrafa yoxdur. Nəsə qafası-qrafası yerində deyil.

Əlbəttə, misilləmə misal üçün, onurğa sütununda problem olanda nələr baş verdiyini sən də bilirsən. Bilirsən ki, "sağlamlıq oxu"na – yəni onurğa sütununa qayğı necə olmalıdır.

**Qalır mənəvi sütunlar ki, onlardan da söz düşəndə nədənsə Dədə Mirzə Tüpdağıdanın bel, oma və büzdüm fəqərələri ağrıyır...**

**Nə deyim, şəfasını... Şekspir versin!**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 oktyabr 2016-cı il
№019 (33)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "იენი იოლი" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## AZƏRBAYCAN YAZARLARI MDB ÜZRƏ "NOBEL"İN QISA SİYAHISINDA



MDB ölkələrinin məşhur ədəbi mükafatı olan "Radnoy dom"un ("Doğma ev") qısa siyahısı açıqlanıb. Müsabiqənin poeziya nominasiyasına heç bir təmsilçimiz düşə bilməyib. Lakin nəsr nominasiyasının "qısa siyahısı"na vəsiqə qazanan 8 yazardan dördü azərbaycanlıdır. Nəriman Əbdürrəhmanlı, Nərmin Kamal, Kamran Nəzirli və Məmmədəli Elşən ədəbi mükafatın "qısa siyahısı"na düşməklə ən azından "Radnoy dom"un diplomlarını əldə ediblər. Qaliblər isə ayın ikinci yarısında müəyyənləşəcək.

Nəriman Əbdürrəhmanlı "İşıqsızlıq" hekayəsi ilə "qısa siyahı" ya düşə bilib.

Qeyd edək ki, müsabiqə Belarusiyanın Minsk şəhərində keçirilir və qaliblər də orada mükafatlandırılacaq.

## DUBAYDA ƏN HÜNDÜR GÖYDƏLƏNİN TİKİNTİSİNƏ START VERİLDİ

Dubayda 828 metrlik "Bürc-Xəlifə" göydələnini ötüb keçən dünyanın ən hündür qülləsinin tikintisinə start verildi. Qüllə yerə kanatlarla bərkidiləcək.

Konstruksiya özlüyündə nəhəng minarəni xatırladacaq. Layihə illüstrasiyalarında Dubai Creek Harbour göydələni uçmağa hazırlaşan raketə bənzəyir.

Qüllənin baxış meydançası da olacaq. Layihəni müxtəlif ölkələrdəki futurist tikililərin müəllifi kimi tanına məşhur ispan arxitektoru Santyaqo Kalatrava hazırlayıb. Tikintinin 2020-ci ildə başa çatdırılması nəzərdə tutulur. Tikinti şirkəti Emaar Properties qüllənin hündürlüyü barədə məlumat verməkdən imtina edib.

Dubayın əmiri Şeyx Məhəmməd bin Rəşid əl-Məktum artıq qüllənin təməlinin qoyulduğunu bildirib.

Dubay 1833-cü ildə İran körfəzi sahilində meydana çıxıb. Ötən əsrin 70-ci illərinədək 100 min əhalisi olan



kiçik şəhər idi. Hal-hazırda isə 2,2 milyon əhalisi olan müasir meqapolisdir, eləcə də Yaxın Şərqin nəhəng ticarət, maliyyə və turizm mərkəzidir. İnkişaf tempinə görə Şanxayla müqayisə olunur. Dubay gələcəyin meqopolisidir. O, Şəhrizad nağıllarının, fantastik romanların illüstrasiyasıdır.

## BU İÇKİ 42 GÜNƏ XƏRÇƏNG XƏSTƏLİYİNİ MƏHV EDİR



Avstriyalı həkim Rudolf Broys bütün həyatını xərçəngi müalicə edən ən yaxşı təbii vasitənin tapılmasına həsr edib. O, xərçənglə mübarizədə müstəsna nəticə əldə etməyə imkan verən nadir şirənin reseptini tapıb.

Rudolf Broys bu kəşfi ilə xərçəng və digər sağalmaz xəstəliklərdən əziyyət çəkən 45 mindən artıq insanı xilas etdiyini iddia edib. Broys xərçəng xəstəliyini yalnız proteinlərin köməyi ilə müalicə etməyin mümkün olduğunu vurğulayıb.

O, 42 günə bölünən qidalanma sistemi hazırlayıb. Broys təklif edib ki, sadəcə çay və əsasını çuğundurun təşkil etdiyi tərəvəz şirəsi ilə qidalanmaq lazımdır. 42 gün ərzində xərçəng hüceyrələri ac qalır və məhv olur. Həmin müddətdə isə xərçəng xəstələrinin vəziyyəti yaxşılaşır. Bu meyvə şirəsini hazırlamaq üçün orqanik tərəvəzlər – çuğundur (55%), kök (20%), kərəviz kökü (20%), kartof (3%), turp (2%) lazımdır.Bütün bu komponentləri blenderdə qarışdırmaq lazımdır. Və hazırlanan bu içkini qəbul etməklə müalicə prosesinə başlamaq və xərçəngdən xilas olmaq mümkündür.

Çuğundur zəngin antioksidant mənbəyidir. O, həmçinin C, B1, B2, B6 vitaminləri, fol və pantoten turşuları, kalium, fosfor, maqnium, kalsium, natrium, dəmir və sink kimi minerallarla zəngindir. Çuğundura qırmızı rəng verən betasianin adlanan bənövşəyi piqmentlərdir. Çuğundur leykoz və xərçəngin müalicəsi üçün son dərəcə faydalıdır. Xalq təbabətində uzun illərdir ki, uğurla istifadə olunduğu da bildirilir.

Çuğundur betainlə zəngindir, amin turşuları isə xərçəng əleyhinə effektiv vasitə hesab olunur. O, soyuqdəymə əleyhinə güclü vasitədir və antioksidantdır. Çuğundurun tərkibində yüksək səviyyədə fol turşusu olduğundan, hamilə qadınlar üçün də çox faydalıdır. Qaraciyərin və öd kisəsinin funksiyasını yaxşılaşdırır, qəbizliyin qarşısını almağa kömək edir. Çuğundur baş və diş ağrılarından, dizenteriyadan, sümük və dəri problemlərindən, menstural ağrılardan xilas olmağa kömək edən ən təsirli təbii müalicə vasitəsidir..

## ALİMLƏR İLK PALATARIN GÜRCÜSTANDA HAZIRLANDIĞINI SÖYLƏYİRLƏR



Sidney universitetinin mütəxəssisləri geyimin meydana çıxmasının ilkin səbəblərini aydınlaşdırmaq qərarına gəliblər. Sən demə, paltar yalnız alverişsiz havadan qorunmaq üçün hazırlanmırmış.

Arxeoloqlar Gürcüstan ərazisində yerləşən mağaraların birindən rəngarəng kətan lifləri aşkarlamağa müvəffəq olublar. Bu tapıntı alimlərin belə bir nəticəyə gəlməsinə imkan verib ki, geyim yalnız bədəni soyuqdan qorumaq və çılpaqlığı örtmək üçün deyilmiş, həm də özünəməxsus bəzək imiş. Bunlar dünyanın ən qədim lifləri olduğundan alimlər ilk paltarın məhz burada meydana çıxması qənaətinə gəliblər.

Qədim insanlar öz bədənlərini müxtəlif rəmzlərin təsvirləri ilə boyamağa çalışırdılar, lakin sonralar soyuqların düşməsi ilə dekorativ bəzək rolunu paltar yerinə yetirməyə başladı.

Müasir dövrümüzdə geyimin əsas vəzifəsi insanı soyuqdan və istidən qorumaqdır.

Bu sahənin mütəxəssisi İena Qilliqanın fikrincə, əcdadlarımızın daha çox malik olduqları tük örtüyü çatışmazlığını aradan qaldırmaq məqsədilə insanlar paltarı sonralar icad ediblər.

## ƏN BAHALI BRENDLƏRİN REYTİNQ CƏDVƏLİ AÇIQLANDI




"Interbrand" tədqiqat şirkəti "Apple" şirkətini dünyanın ən uğurlu brendi adına layiq görüb.

Belə ki, IT sahə üzrə fəaliyyət göstərən şirkətin dəyəri il ərzində 5% artıb. Beləliklə "Apple" dünyanın ən bahalı brendi adını yenə özündə saxlamağı bacarıb. Brendin dəyərini 178 milyard dollar həcmində qiymətləndiriblər.

İkinci yerdə "Google" qərarlaşıb. Daha çox axtarış sistemi brendi kimi tanınan "Google" dəyərinin yüksək qalxma tempini (11%) sərgiləyərək qiymətinin 133 milyard dollara çatmasına nail olub. Bir vaxtlar bu siyahıda lider olmuş "Coca-Cola" isə 3-cü yeri tutub. Onun qiyməti 73 milyard dollar (-7%) təşkil edir.

Top 10-a daha 4 texnoloji şirkət daxil olub. Onların arasında 4-cü yerdə 72,7 milyard dollar göstərici ilə (+8%) "Microsoft", 6-cı yerdə 52 milyard göstərici ilə (-19%) "IBM", 7-ci yerdə 51,8 milyard dollar göstərici ilə (+14%) ilə "Samsung" və 50,3 milyard dollar göstərici ilə (+33%) "Amazon" qərarlaşıb.

Brendin dəyərinin rekord dərəcədə artımını "Facebook" (+48%) sərgiləyib. O, 15-ci yeri tutub. Reytinqə ilk dəfə "Tesla" da daxil olub. Onun hazırki dəyəri 4 milyard dollar təşkil edir.

## ALMANİYADA HİDROGENLƏ İŞLƏYƏN QATARLAR İŞƏ SALINACAQ



Artıq gələn ildən arzu edənlər dünyada ilk hidrogenlə işləyən qatarlarda gəzə biləcəklər.

Fransız şirkəti Alstom-un hazırladığı Coradia iLint adlı bu nəqliyyat vasitəsi tamamilə müasir, ekoloji və səssizdir. Hidrogenlə işləyən bu qatar atmosferə buxar və su kondesatından başqa heç nə buraxmayacaq. 14 belə qatar 2017-ci ilin dekabrından Almaniyanın şimal-qərb regionunda, Aşağı Saksoniyada hərəkətə başlayacaq.

Coradia iLint qatarın damında yerləşən hidrogen rezervuarlardan yüklənən nəhəng litium-ion akkumlyatorlarla işləyəcək. Hər vaqon üçün yanacaq sərfi 94 kiloqramdır, tam doldurulmuş bak bütöv bir gün və ya fasiləsiz 800 kilometr getmək üçün kifayət edir. Qatarın sürəti 140 km/saatdır, orta hesabla 300 sərnişin tutumuna malikdir.

Hidrogen yanacağından on ildir istifadə olunsa da, o, indiyədək yalnız yük nəqliyyatı sahəsində tətbiq edilib. Əgər bu nəqliyyat növü özünü doğrultsa, onun Almaniyanın digər regionlarında, sonra isə Danimarka, Hollandiya və Norveçdə də tətbiqi gözlənilir.

**Təsisçi:**
*"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"*

***Redaktor*:**
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru*:**
**Hacı Bəkiroğlu**

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 595 92 25 70*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.